Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# "Bir sevgiyə bələndim, Haram var, hara gedim?"

**Aynur Turan**

**O nurdan doğuldu, sözdən yarandı,**
**Gün yaxdı, üfüqdə o nuru qaldı.**
**Nə yaxşı ikidi şair həyatı,**
**Öz ömrü getdisə, söz ömrü qaldı...**

Tariximizin və mədəniyyətimizin neçə-neçə şanlı, parlaq səhifəsi məhz onun adı ilə bağlı olmuşdur. Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər, şair və yazıçılar bəxş etmişdir. Xalqımızın təfəkküründə ana məfhumu doğma yurdun, Vətən torpağının təcəssümüdür. Ötən əsrdə qadın hüquqlarının qazanılması və qorunması yolunda misilsiz uğurlar əldə etmiş Azərbaycan qadını bu gün artıq ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır. O, taleyüklü milli məsələlərin həllinə sanballı töhfələr verir. Dövlət quruculuğunda onun yüksək ehtirama layiq mövqeyi bu gün qeyd edilən bayramı müstəqillik ideyası ətrafında sıx birləşən xalqımızın və cəmiyyətimizin bayramına çevirmişdir. Elm, təhsil, mədəniyyət, səhiyyə, ədəbiyyat və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu zaman - zaman təsdiq etmişdir.

***Ədəbiyyata kişilər qədər qadınlar da həmişə töhfələr verib. Onların arasında Nobel və digər nüfuzlu ədəbi mükafatları alanlar da az olmayıb. Elə Azərbaycan ədəbiyyatının yükü də kişilərlə bərabər, qadınların da çiyninə düşüb. Çağdaş ədəbiyyatımızda da sevilən və tanınan imzalar az deyil. Axı, qadın özü elə şeirdir. Təpədən dırnağa poeziya, lirik duyğular mücəssəməsidir qadın. Şeirdən biçilən qadının özü şeir yazanda sözlə gözəlliyin, ruhla ürəyin qırılmaz vəhdəti yaranır. 76 illik bir ömür yolu qət edən, bu yolda qarşısına çıxan bütün maneələri dəf etməyi bacaran Azərbaycan şairəsi, aktrisası, diktoru, müəllim-pedaqoq, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nurəngiz Gün daxilən də, zahirən də şeirin özünə bənzəyir.***

**Həyatı**

Nurəngiz Gün 1938-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1 saylı Bakı Tibb Məktəbini, ADİU-i bitirmişdir. Nurəngiz Gün Azərbaycan Televiziyasında diktor vəzifəsində çalışmış, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində səhnə danışığı və nitq mədəniyyəti kafedrasında müəllim işləmişdir.

Prezident təqaüdçüsü olmuşdur.

23 aprel 2014-cü ildə Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda Nurəngiz Günün 75 illik yubileyinə həsr edilmiş tədbir keçirilmişdir. Yubiley tədbirində Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, sənətkarın ailə üzvləri və ədəbi ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Nurəngiz Gün 20 dekabr 2014-cü ildə 76 yaşında Bakı şəhərində vəfat etmiş, dekabrın 21-də Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

Babası məşhur həkim Mirzə Ələkbər Hacızadə Əfəndi 1937-ci ildə repressiya edilmişdir.

Millət vəkili Jalə Əliyevanın anasıdır.

Nurəngiz Gün oxucularla ilk görüşə "Ulduz" jurnalında dərc edilən "Tanrı" (1981) povesti ilə gəlmişdir. Şairənin yaradıcılığında ən çox diqqəti cəlb edən məqam onun yalandan, riyadan uzaq olması, həqiqəti yazmasıdır. Daxilən azad bir şairə olan Nurəngiz Gün bütün əsərlərində, hətta ən kiçik şeirlərində belə sərbəstdir, səmimidir. O, cəmiyyətdə baş verən naqislikləri, əyintiləri daxili intellektual bir narahatlıqla, bir vətəndaş həssaslığı ilə ürəyindən qələminə köçürərək onları oxucuya təqdim etmişdir.

Şairə Nurəngiz Günün eyni adlı poeması əsasında "Xocalı simfoniyası" filmi çəkilmişdir.

2010-cu ildə Xalq artisti Aygün Kazımova Aygün Səmədzadənin Nurəngiz Günün sözlərinə bəstələdiyi "Yol gedirəm" mahnısını ifa etmişdir.

**Dodaqlarımda təbəssüm,**
**Bəbəklərimdə ümid və qürur,**
**İçimdə ağlamaq ehtiyacı...**
**Yol gedirəm, yorulanadək...**

O, poeziyaya təzə nəfəs kimi gəldi, özünü istedadlı şairə kimi təsdiq etdi. Şöhrəti sevmədi. Hamı kimi olmadı, kimsəyə bənzəmədi. Ömrü boyu sadə, təvazökar insan kimi yaşadı, "Həyat – qanadlı bir nağıl" deyə onun gözəlliklərindən zövq aldı, illər həyat eşqini dəyişmədi. Yaşlaşdıqca, yaşının üstünə yaş gəldikcə "Mən deyən adamlar azdır" deyə ünsiyyətdən qaçdı, bundansa mütaliə etməyi üstün tutdu, sevimli kitablarla dərdləşdi, söhbətləşdi. Özünü "ev pərvanəsi"nə döndərdi. "Beyni yüklü, qayğılı" yaşadı, amma "Haqqım yoxdur kimisə yükləməyə" deyə bunu kimsəyə hiss etdirmədi...

***Bir şakəri də varmış Nurəngiz xanımın. Yuxudan erkən oyanmağı, Günəşi hamıdan tez qarşılamağı sevərmiş. Çiçəkləri dərənlərə, quşları ovlayanlara nifrət edər, bir gülün ayaqlar altına atılmasına razı olmazmış. Amma bu dəfə sevənləri onun dediyinin əksini etdilər, gül-çiçəkləri məzarı üstünə səpələdilər. Gün çıxmayanda, hava tutqun olanda darıxan Nurəngiz Günü gizlədən qara torpağı bəzədi bu gül-çiçəklər... Yəqin bu dəfə incimədi, çünki ana torpaqla birgə güllərin də qoxusuna, ətrinə bələndi...***

***Nurəngiz Günün şeirləri bir çox ölkələrdə-Türkiyədə, Özbəkistanda, İranda, İraqda, Estoniyada, keçmiş Yuqoslaviyada çap olunub. Şairə müxtəlif vaxtlarda xarici ölkələrin ədəbi ödüllərinə layiq görülüb.***

...Poeziyası ümid, kədər, məhəbbət və qadın (lıq)... ətrinə bələnən şairənin könül süfrəsindən, şeir bağçasından... seçilən əlvan çələngi onun çoxsaylı oxucusuna təqdim edirik:

**Ulu nənəm, Gün xanım, hey!..**
**Bu torpağın öncə Günəşi doğub,**
**Bu torpaq sarı tellərdən yoğrulub.**
**Bu torpağın**
**ulu nənəsi Gün xanım olub.**
**Gün xanım, Günəş xanım!**
**Andım, Tanrım, imanım!**
**Yadındamı,**
**Tellərindən bir cüt hörük toxudun,**
**Bağışladın anama?**
**Hə, bax, onu deyirəm, e!**
**Allah apardı, getdi...**

80-ci illərin ortalarında və sonlarında Nurəngiz Günün poeziyasında daha çox tənqidi notlar eşidilir. Hədər yerə deyil ki, o, "Mən gülürəm" adlı şeirini böyük Azərbaycan satirik şairi Mirzə Ələkbər Sabirin xatirəsinə ithaf etmişdir. Bu o zamanlar idi ki, dünənki kütbeyinlər, cahillər ön plana çıxaraq meydanları və stadionları doldurmuşdular, hakimiyyətin zirvəsinə qalxmışdılar - bir sözlə köpüklər ictimai həyatın səthinə yüksəlmişdilər. Nurəngiz Gün də öz şeirlərində bu nizamsızlığa etiraz edir, bu ağılsız xora qoşulmamaq üçün xilas olmağa çalışır, özünü evinin sakitliyində ağ vərəqlər arasında gizlədir. Bunun özü də özünəməxsus bir etiraz formasıdır. Şairə həmin dövrün reallıqlarıyla barışmır, sovetlərin sonunun gəldiyi xəbərini imperiya dağılmazdan çox illər əvvəl şeirlərində sanki xəbər verir.

"Pələng yuxusu", "Ehtiyat", "Açıq söhbət", "Öz aramızda qalsın" və xüsusən "Qəfəs respublikaları" kimi şeirlərində, o, hansısa qüvvəni (yəqin ki, "böyük qardaşı") bütün qəfəslərdəki quş və heyvanları qəfəslərdən açıb azadlığa buraxmağa çağırır.

**Xocalı simfoniyası**

90-cı illərdə Nurəngiz xanımın yaradıcılığında amansız düşmənin təhqir və talan etdiyi torpaqlarımızın motivləri qabarıq şəkildə səslənirdi. Xalqının başına gələnlərdən hədsiz sarsılan Nurəngiz Gün özünün şedevrini – "Xocalı simfoniyası" poemasını yaradır. O, hələ sovet dövründə, özünə xas olan romantik, lirik-dramatiik ruhda hərbi-vətənpərvərlik mövzulu şeirlər yazırdı. Belə ki, 1981-ci ildə Nurəngiz Günün "Salamat ol, Ağça yol" adlı poeması çap olunmuşdur. Böyük Vətən müharibəsinin özü ilə gətirdiyi faciə, 40 il oğlunun müharibədən qayıtmasını gözləyən ananın obrazında göstərilir. Poema 20-ci əsrin 80-ci illərində meydana çıxsa da, təəssüf ki, üstündən 10 və ya 20 il keçməsinə baxmayaraq, aktuallığını itirmir. Əsər bu gün də aktualdır. Çünki Azərbaycanda yüzlərlə, minlərlə ana Qarabağ müharibəsindən dönməyən övladlarının yolunu gözləyir. Nurəngiz Günün poemasının lirik qəhrəmanı kimi, kədər və ümidlə, gözləyir...

"Xocalı simfoniyası" poeması – Xocalı soyqırımı mövzusunda yazılan ilk bədii əsərdir və əgər belə demək mümkündürsə şairənin ürəyinin qanı ilə yazılıb. O, gah xristian allahına müraciət edir, gah da çox sevdiyi Məryəm anaya belə bir dəhşətli cinayətin törədilməsinə necə yol verdiklərini sual edir:

**Ah! Boğulur, cocuqlar,**
**Yorulur torpağın altında**
**Cocuqlar!**
**Əlləri, qolları yorulur...**
**Heç bir şey anlamır, Cocuqlar!**
**Cocuqlar top-top oynamaq istəyir,**
**torpağın altında.**
**Cocuqlar bir təhər ovunar**
**havasız... nəşəsiz...**
**torpağın altında...**
**O! Məryəm!...**
**Ancaq ki, ana məməsi istəyir körpələr torpağın altında!**
**Heç bir şey anlamır İnqalar!..**
**İnqalar ana döşü əvəzinə**
**İndicə torpağı əməcəklər!..**

Nurəngiz Günün Xocalı soyqırımının qurbanlarına anım fəryadı insanı qəlbinin dərinliklərinə qədər sarsıdır, oxucunu uzun müddət tərk etmir, mənəvi iztirab keçirməyə vadar edir. Əsil sənət əsərlərinin yazılmasının məqsədi də elə budur.

Bu poema demək olar ki, ölkənin bütün əsas telekanalları tərəfindən ekranlaşdırılıb. 2011-ci ildə isə "Xocalı simfoniyası" Azərbaycan televiziyasında sənədli-publisistik film kimi yeni həyat qazanıb...

**Apar məni, apar, apar...**

***XXI əsrdə onun yaradıcılığında yeni motivlər görünməyə başlayır - bunlar, hər şeydən əvvəl qardaş Türkiyə, Şimali Kipr mövzusu, hədsiz sevdiyi Nazim Hikmətə həsr etdiyi poemadır. Nurəngiz xanımın poetik dili mürəkkəbləşir, dərin obrazlılıq ortaya çıxır, şairənin özünün yaratdığı neologizmlər diqqət çəkir. Nurəngiz Günün yaradıcılığının bu xüsusiyyəti və ümumilikdə bütün yaradıcılığı dərin təhlilə və tədqiqə möhtacdır. Yeri gəlmişkən, sevindirici haldır ki, onun ədəbi irsi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda xüsusi dissertasiyaların mövzusuna çevrilmişdir.***

**(ardı gələn sayımızda)**



***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur***